# ORDUMUZ VƏ GÜCÜMÜZ VAR OLSUN!



Azərbaycanın müdafiə qabiliyyəti deyəndə, ilk növbədə, bu fikrin birbaşa anlamında ölkəmizi qoruyub müdafiə edə biləcək qüvvəni – Silahlı Qüvvələrimizi düşünürük. Əslində isə elə bu iş haqqında Ali Qanunumuzda da deyildiyi kimi, "Azərbaycan Respublikasının müdafiəsi dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemidir." Qanun dili ilə təsbit olunan bu sistemin nə qədər təkmilləşdiyi, ölkəmizin öz ordusunu gücləndirərək regionda hesablaşılası gücə çevirməsi düşmən tərəfdə yaranan narahatlıqla nəticələnməklə, ətrafımızda baş verən son hərbi-siyasi hadisələrin fonunda daha aydın görünməyə başlayıb. Bu gün ərazilərimizi işğal altında saxlasa belə, Ermənistanın hərbi güc baxımından Azərbaycanla müqayisədə nə qədər geridə qaldığı da, gücsüzlüyünü hiss etdiyindən, yeganə himayədarı və müdafiəçisi kimi gördüyü ölkənin hərbi bazası olaraq güclənmək meylinin artması aydın müşahidə olunur. Tez-tez atəşkəsi ölkəmizlə dövlət sərhədi istiqamətindən pozması da işğalçı Ermənistanın Azərbaycanın Qarabağ problemini öz daxili məsələsi olaraq həll etməsinə əngəl yaratmaq cəhdləridir.

***Bütün siyasi gedişlərlə, qətiyyət nümayişi ilə yanaşı, son illərdə Azərbaycan öz hərbi gücünü də artırmaqdadır. Bu, bir sıra ölkələrlə hərbi-texniki əməkdaşlığın inkişafı sayəsində ölkəmizin müdafiə qabiliyyətinin artırılması, orduda aparılan islahat və dəyişikliklərlə müşayiət olunur. Qardaş Türkiyədən və digər ölkələrdən müasir silah və müdafiə sistemləri, döyüş vasitələri alınmaqla yanaşı, ölkəmizin müdafiə sənayesi də Silahlı Qüvvələrimizi lazımi silah-sursatla tam təmin etmək yolunda inkişaf etməkdədir.***

Son günlər cəbhədə və işğalçı Ermənistanla ölkəmizin dövlət sərhədində vəziyyət gərgin olaraq qalır. Daha da fəallaşaraq diversiya, təxribat əməliyyatlarının sayını artıran Ermənistan tərəfi ardıcıl ordumuzun mövqelərini ələ keçirməyə, müdafiəni yarmağa cəhdlər edir. Amma hər dəfə də Azərbaycan Ordusunun müdafiə mövqelərində zabit və əsgərlərimizin ciddi müqaviməti ilə üzləşərək, itki verib geri çəkilirlər. Döyüşçülərimiz yeni ərazilər ələ keçirmək üçün həmləyə keçən düşmənin Goranboy rayonu istiqamətindəki son cəhdində isə ona layiqli cavab verərək diversiya qrupunun başçısını ələ keçirdi. Məlum olduğu kimi, avqustun 23-də gecə saat 05.45 radələrində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu cəbhənin Goranboy rayonu istiqamətində yenidən təxribat törətməyə cəhd göstərib. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə, cəbhənin bu istiqamətində yerləşən Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur edilib. Döyüş zamanı erməni diversiya qrupunun komandiri, ilkin dindirməyə görə, baş leytenant Qurgen Alaverdiyan əsir götürülüb.

İşğalçı düşmənin son vaxtlar cəbhənin bütün istiqamətlərində daha da fəallaşması, xüsusilə də ölkəmizin Ermənistanla dövlət sərhədində, Tovuz, Qazax rayonları istiqamətində hərəkətə keçməsi Ermənistan tərəfinin bu planlarının gücünə arxalandığı məlum qüvvələrin himayəsi və göstərişi ilə həyata keçirildiyi də açıq-aydın görünür. Cəbhədəki son hadisələr bir daha göstərir ki, Ermənistan tərəf nəinki işğal etdiyi torpaqlarımızdan çəkilmək istəmir, əksinə havadarlarının dəstəyi ilə yeni ərazilər tutmaq iştahını da itirməyib. Ermənistan rəhbərliyinin və ordu nümayəndələrinin öz uğursuzluqlarını ört-basdır etməyə çalışaraq cəbhədə baş verən bu mövqe savaşları ilə bağlı Azərbaycanı günahlandırması, ölkəmizin ərazi bütövlüyü uğrunda savaşan ordumuzun ünvanına əsassız, hədyan dolu fikirlər səsləndirməsi, hər şeydən əvvəl, əks tərəfin qorxu, iztirab hissindən xəbər verən gülünc dezinformasiya cəhdindən başqa bir şey deyildir.

Son illərdə öz arsenalını ciddi şəkildə təkmilləşdirən Azərbaycan Ordusu indi ciddi struktur dəyişiklikləri ilə yeni formalaşma mərhələsi keçir. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2013-cu il dekabrın 18-də imzaladığı fərmana əsasən, ölkəmizin təhlükəsizliyi baxımından mühüm bir qərar verildi. Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradıldı. Yaxın günlərdə həmin qüvvələrin Qardaş Türkiyə Silahlı Qüvvələri ilə birgə ümumqoşun təlimləri ilə buradakı gücümüz bir daha nümayiş olundu. Nümayiş olundu ki, Azərbaycanın Zəngəzur mahalının Ermənistan tərəfindən tutulması nəticəsində ölkəmizin ayrı düşən bu böyük hissəsi elə ayrılıqda öz hərbi potensialı ilə istənilən düşmənə layiqli cavab verməyə də, ordumuzun böyük bir qolu olaraq ərazi bütövlüyümüz uğrunda müharibəyə də tam hazırdır.



Ümumiyyətlə, təlimlər hər bir ordunun döyüş qabiliyyətini nümayiş etdirdiyi əsas sınaq, yoxlama tədbirləridir. Döyüş vəziyyətinə hazır və tədbirli olmaq üçün bir qədər də planlaşdırılmış, haradasa səhnələşdirilmiş müəyyən bir ssenari üzrə keçirilən təlimlərin mümkün döyüşlərin baş məşqi olduğunu da danmaq olmaz. "Təlimdə tər tökən döyüşdə qan tökməz" deyərkən də təlimdə tökülən tərin, sərf olunan zəhmətin real döyüşdə zəfərlə nəticələnəcəyini artıq el məsəlinə çevrilən bu ifadə ilə dilə gətiririk.

Təlim demişkən, yaxın günlərdə qardaş Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə Azərbaycan Ordusunun birgə keçirdiyi genişmiqyaslı təlimlərlə "dostlara güvənc yeri, düşmənə göz dağı" ola bildik. Təlimlərdə qardaş ölkənin də, Silahlı Qüvvələrimizin də müasir, milli silah və döyüş texnikası ilə yenilənən gücünü gördük. Qardaş ölkə ilə, dostlarla birgə izləyərək qürur duyduğumuz bu mənzərədən işğalçı düşmənin hədsiz təşvişə düşdüyünü də gördük.

Bu gedişlə, regionda təhlükəyə çevrilən, ara qızışdıran işğalçı Ermənistan, deyəsən, çox yaxında təlim meydanlarından hər an döyüş meydanına atılmağa hazırlaşan ordumuzun gücünü öz canında yaxından və real olaraq da görüb hiss edəcək. Hələliksə, ordumuz cəbhəyanı və sərhədyanı yaşayış məntəqələrimizi ardıcıl atəşə tutan, müdafiə mövqelərimizə silahlı basqınlar, diversiya əməliyyatları planlaşdıran Ermənistan tərəfinin aranı qızışdırmaq, müharibəni başlamaq cəhdlərini soyuqqanlıqla qarşılayır və cəbhə xəttinin yaxınlığında yerləşən yaşayış məntəqələrimizin təhlükəsizliyini, əhalinin dincliyini təmin etməyə çalışır. Məkrli düşmənin hiylə və planlarından xəbərdar olan, onun bütün hərbi təxribatlarını dəf edən ordumuzun bugünkü gücü, ayıq-sayıqlığı addım-addım yaxınlaşmaqda olan zəfərimizdən, işğalçı qüvvə üzərində tam və qəti qələbəmizdən xəbər verir.

**Rahib QƏRİB,**
**"Xalq qəzeti"**